## ABİDƏLƏR

**1. İrəvan qalası – Yerevan şəhəri.**

1936-cı ilədək müxtəlif mənbələrdə Erevan, Ervan, Rəvan, İrəvan adlandırılan şəhərin adı həmin tarixdə dəyişdirilərək Yerevan qoyulmuşdur. 1924-cü ildə A.İ.Tamanyan, 1970-ci ildə M.D.Mazmanyan, E.A.Papyan və b. arxitektorların səyi ilə şəhərin tarixi siması tamam dəyişdirilmiş, bu qədim Azərbaycan şəhəri erməniləşdirilmişdir.

**2. Qoşundaş – Zorakarer.**

Zəngəzur mahalının Qarakilsə rayonunda e.ə. II minilliyə aid meqalit (iri daşlardan ibarət) tikili qalıqları.

**3. Qırmızıtəpə – Karmirblur.**

İrəvan şəhəri yaxınlığında e. ə. VIII yüzildə Urartu çarları tərəfindən Teyşebaini qalasının ucaldıldığı qırmızı təpənin adı.

**4. Urud qalası – Vorotanberd.**

Zəngəzur mahalının Qarakilsə rayonunda V yüzilə aid qala. 03.07.1968-ci ildə ermənilər qalanın yerləşdiyi Urud kəndinin adını dəyişib Vorotan qoyanda qalanın da adını dəyişib Vorotanberd qoyublar.

**5. Uzunlar – Odzun.**

Loru mahalının Allahverdi rayonunun Uzunlar kəndində VI-VII yüzillərə aid məbəd. 30.09.1968-ci ildə ermənilər mə-

bədin yerləşdiyi kəndin və məbədin adını dəyişib Odzun qoyublar.

**6. Kolagirən-Teyşeba qalası – Odzaberd.**

Göyçə mahalının Qaranlıq rayonunun Kolagirən kəndi kənarında e.ə. VIII yüzilin ikinci yarısına aid qədim qala.

**7. Oxçu qalası – Baqaberd.**

Zəngəzur mahalının Qafan rayonunda VI-VII yüzillərə aid qədim qala.

**8. Qırmızıvəng – Karmravor.**

Karbibasar mahalının Əştərək rayonu ərazisində VII yüzilə aid məbəd. Ermənilər məbədin azərbaycanca adını sətri tərcümə etmişlər ("karmir" ermənicədə "qırmızı" deməkdir)

**9. Qarqavəng – Zoravar.**

Karbibasar mahalının Əştərək rayonu ərazisində VII yüzilə aid məbəd.

**10. Aysəsi – Arates.**

Dərələyəz mahalının Keşişkənd rayonunun Aysəsi kəndində VII-VIII yüzillərə aid məbəd. 19.04.1991-ci ildə ermənilər kəndin və məbədin adını dəyişib Arates qoymuşlar.

**11. Sivəng – Sevan.**

Göyçə gölünün içindəki adada IX yüzilə aid qala və məbəd.

**12. Nərədüz məbədi və Nərədüz qəbiristanlığı – Noradus.**

Göyçə mahalının Kəvər rayonunun Nərədüz kəndində IX yüzilə aid alban abidəsi.

**13. Qanlıca – Marmaşen.**

Şörəyel mahalının Düzkənd rayonunun Yuxarı Qanlıca kəndində IX-XI yüzillərə aid məbəd. 26.04.1946-cı ildə ermənilər kəndin və məbədin adını dəyişib Marmaşen qoymuşlar.

**14. Qıpçaq – Ariçavank.**

Şörəyel mahalının Artik rayonu ərazisində XIII yüzilə aid məbəd. 31.05.1946-cı ildə ermənilər kəndin adını dəyişərək Ariç qoyanda məbədin də adını dəyişib Ariçavank qoymuşlar.

**15. Qoşavəng – Cuğtağvank.**

Şəmşəddil sultanlığı ərazisində, Karvansaray rayonunda məbəd. Ermənilər "qoşa" sözünü sətri tərcümə edərək ("cuğt" – ermənicə "qoşa" deməkdir) məbədin adını Cuğtağvank qoymuşlar.

**16. Qoşavəng – Nor Getik.**

Qazax-Şəmşəddil sultanlığı ərazisində, Karvansaray rayonunun Qoş kəndində XII-XIII yüzillərə aid məbəd.

**17. Güneyvəng – Kirants-vank.**

Qazax-Şəmşəddil sultanlığı ərazisində, Karvansaray rayonunda XII-XIII yüzillərə aid məbəd. 25.05.1967-ci ildə ermənilər kəndin adını dəyişərək Kirants qoyanda məbədin də adını dəyişib Kirants-vank qoymuşlar.

**18. Amağu//Anabat – Noravank.**

Dərələyəz mahalının Keşişkənd rayonunun Amağu kəndində XIII yüzilə aid məbəd.

**19. Xanavəng – Ohanavank.**

Karbibasar mahalının Əştərək rayonunun Xanavəng kəndində XIII yüzilə aid məbəd.

**20. Erdəpin – Yeğegis.**

Dərələyəz mahalının Keşişkənd rayonunun Erdəpin kəndində XIII-XIV yüzillərə aid məbəd. 10.09.1946-cı ildə ermənilər kəndin və məbədin adını dəyişib Yeğegis qoymuşlar.

**21. Şadıvəng – Şatin.**

Dərələyəz mahalının Keşişkənd rayonunun Həsənkənd kəndi yaxınlığında XIII-XIV yüzillərə aid məbəd. 03.01.1935-ci ildə ermənilər kəndin və məbədin adını dəyişib Şatin qoymuşlar.

**22. Arpa – Areni.**

Dərələyəz mahalının Keşişkənd rayonunun Arpa kəndində XIV yüzilə aid məbəd. 10.09.1946-cı ildə ermənilər kəndin və məbədin adını dəyişib Areni qoymuşlar.